# RAMAZAN BAYRAMINIZ MÜBARƏK!



Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

N 230
(4746) CÜMƏ, 12 OKTYABR 2007-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan.news.az | Qiyməti 20 qəpik

# Ramazan bayramı münasibətilə Şeyxülislamın təbriki

Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm həmvətənlərim, əziz müsəlman qardaş və bacılarım!

Mübarək Ramazan bayramı münasibətilə hamınızı səmimi qəlbdən təbrik edir, Allahdan Öz gözəl nemətlərini sizlərdən əsirgəməməsini diləyirəm.

Bu ülvi bayramın əzəmət və fərəhi o qədər böyük, məğzi və mahiyyəti o qədər cahanşümuldur ki, onun bütün dərinliklərinə vaqif olmaq insana hədsiz səadət, hüdudsuz fəxarət bəxş edir. Ramazan ayında Ulu Yaradanın Rizasını qazanmaq üçün bütün ibadətlərini sonsuz ehtiram, fərəh və səylə tamamlayan müsəlman qardaş və bacılarımızın oruclarının qəbul, dualarının müstəcəb olmasını diləyirəm.

Şükürlər olsun ki, xalqımız ildən-ilə Ramazan bayramının qüdsal fəlsəfəsindən irəli gələn dəyərlərə daha artıq dərəcədə sahib olur, Allah-Təalaya ibadətdən hədsiz şərəf duyur. Ramazanın təlqin etdiyi gözəl cəhətlər sırasında dözüm, mərhəmət, xeyirxahlıq, kasıblara, kimsəsizlərə əl tutmaq, yaxınlarla paylaşmaq və s. bu kimi Allaha xoş gedən məqamlar bəşər övladının mənəvi intibahına, Uca Yaradanına məhəbbətinin artmasına, ümmət olaraq səflərinin möhkəmlənməsinə, Vətən sevgisi və dövlət təəssübünün güclənməsinə rəvac verir.

Ulu Yaradanın Lütfü və Mərhəməti sayəsində Ramazan bayramını qarşılayan xalqımızın ülvi arzuları Vətənimiz üçün səadət, əmin-amanlıq istəkləri ilə qovuşur. Bu əziz gündə biz inanırıq ki, möhtərəm dövlət başçımız İlham Əliyev həzrətlərinin dəyərli rəhbərlik bacarığı və qətiyyətli fəaliyyəti sayəsində, inşallah, işğal altında olan torpaqlarımız azad ediləcək, dövlətçiliyimiz inamla, davamlı olaraq tərəqqi və intibah yolu ilə irəli gedəcək, Azərbaycanın dünya birliyində mövqe və nüfuzunun daha da güclənməsi təmin olunacaqdır.

Dövlət rəhbərinin mənəviyyat sahəsinə münasibətdə nümayiş etdirdiyi misilsiz qayğı və ali himayə bizləri xüsusilə sevindirir və rifah dolu uğurlu gələcəyə inamımızı gücləndirir. Belə ki, məhz mənəviyyatı güclü olan və onu daim inkişaf etdirən xalq tərəqqi və səadətə qovuşmağa layiqdir.

Bir daha əziz bayram - Eydül-Fitr münasibətilə bütün mömin qardaş və bacılarımı təbrik edir, Uca Yaradandan hər birinizin evinə rifah və əmin-amanlıq bəxş etməsini diləyirəm. Qoy qəlbində Allah məhəbbəti yaşadan xalqımızın bütün ülvi arzu və niyyətləri, inşallah, gerçəkləşin!

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

*Şeyxülislam*
*Allahşükür PAŞAZADƏ,*
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*